# Musiqi məktəbinin uğurları





Azərbaycanın ilk uşaq musiqi məktəblərindən biri də Georgi Şaroyev adına 35 nömrəli musiqi məktəbidir. Məktəb 1934-35-ci illərdə professor Georgi Şaroyev tərəfindən Bakı Dairəvi Zabitlər Evinin nəzdində fəaliyyətə başlamışdır. 1951-ci ildə Bakı Dairəvi Hərbi Sovetinin qərarı ilə məktəb 10 illik, 1960-cı ildə isə 11 illik təhsil sisteminə keçmişdir. 1969-cu ildə isə məktəbə Bakı Dairəvi Hərbi Sovetinin qərarı ilə orta ixtisas musiqi məktəbi kimi G.Şaroyevin adı verilmişdir. 1987-ci ildən bu məktəb Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Mədəniyyət Nazirliyinin tabeliyinə verildi. Məktəbin geniş fəaliyyəti, onun apardığı iş nəzərə alınaraq 2011-ci ildə məktəbin binası müasir tələblərə cavab verən bir şəkildə əsaslı təmir edilmişdir. 2012-ci ildə isə məktəb uşaqların sərəncamına verilmişdir. Eyni zamanda müasir avadanlıq və musiqi alətləri ilə də təmin edilmişdir. İndi məktəbin ikimərtəbəli binası 41 otaqdan, kiçik və böyük zaldan, muzey, kitabxanadan, anbar və arxivdən ibarətdir.

Məktəbin direktoru ali ixtisas təhsilli, təcrübəli və istedadlı musiqiçi Yusif Vəliyevlə söhbət edərkən, o bildirdi ki, dövlət tərəfindən şərait yaradıldıqdan sonra burada 4 şöbədə 26 ixtisas üzrə uşaqlara dərs tədris olunur. Fortepiano, skripka, alt, violençel, kontrabas, klarnet, truba, fleyta, faqot, qaboy, valtorn, saksafon, gitara, tar, kamança, qanon, balaban, qarmon, qaval və nağara, saz, xanəndəlik ixtisasları üzrə 401 nəfər şagird təhsil alır. Yusif müəllim onu da qeyd etdi ki, uşaqlara 100 nəfər müəllim dərs deyir.

Uşaqlar burada ibtidai və orta təhsil alırlar. Müəllimlər onlara Azərbaycan xalq, klassik və dünya mədəniyyəti və incəsənətinin ən gözəl nümunələrini öyrətməklə zövqlərini formalaşdırırlar.

Yusif müəllim onu da qeyd etdi ki, məktəbin məzunları ixtisasları üzrə respublikamızın ali və orta ixtisas musiqi təmayüllü məktəblərinə daxil olurlar.

Fərəhlə qeyd etmək lazımdır ki, şagirdlərdən 7 nəfəri Prezident təqaüdünə layiq görülmüşdür. Məktəbin onlarca şagirdi beynəlxalq və respublika müsabiqə və festivallarının laureatı olmuşlar. Məktəbin şagirdləri respublikamızda keçirilən əksər təqvim günlərində, mədəni tədbirlərdə, ifaçılıq sənəti festivallarında daha yaxından iştirak edir, əksərən də qalib olurlar. Burada uşaqların musiqiyə olan həvəsini daha da artırmaq üçün ustad dərslərindən də geniş istifadə olunur. Təsadüfi deyildir ki, respublikamızın ən adlı-sanlı musiqiçiləri burada ustad dərsləri keçmişlər.

Qeyd etmək lazımdır ki, bu günlərdə "2 Fevral - Gənclər Günü"nə həsr olunmuş tədbir əks-səda doğurmuşdur. "Fortepiano musiqi axşamı" adlanan bu tədbirdə dahi bəstəkarlar Q.Qarayev, P.Çaykovski, F.Şopen, L.Bax, V.Motsart və başqalarının fortepiano əsərləri şagirdlərdən Vəli Əliyev, Fəridə Məmmədova, Aytac Əlizadə, Səmra Həsənli, Fərhad Həsənzadə, Leyli Nəcəfova və başqaları tərəfindən müvəffəqiyyətlə ifa olundu.

**Zabit CAVADOV,**
**"Respublika".**